# Qazaxda Ulu öndərə həsr edilən tədbir

**Hərbi Prokurorluq Qazaxda Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə birgə tədbir keçirib.**



Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, DSX-nin "Qazax" əlahiddə sərhəd diviziyasının komandiri, general-mayor Misir Əliyev, Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri Firad Əliyev və başqaları Ümummilli lider Heydər Əliyevin çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Sonda hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olunub, onları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri barədə məlumat verilib.

**XQ**

Xalq qəzeti.- 2023.- 31 oktyabr, №238.- S.5.